| | | |
|---|---|---|
| **Ümumi məlumat** | **Fənnin adı, kodu və kreditlərin sayı** | ART302, Qrafik rəsm, 6 AKTS |
| | **Departament** | Memarlıq və dizayn departamenti |
| | **Proqram (bakalavr, magistr)** | Bakalavr |
| | **Tədris semestri** | 2025/2026-cı tədris ilinin yaz semestri |
| | **Fənni tədris edən müəllim (lər)** | Həsənov Həsənağa Ədalət oğlu |
| | **E-mail:** | hasan.hasanaga@khazar.org |
| | **Telefon:** | |
| | **Mühazirə otağı/Cədvəl** | Neftçilər korpusu, 104-cü otaq |
| | **Məsləhət saatları** | Tələbələrlə razılaşdırılan vaxtlarda |
| **Prerekvizitlər** | - | |
| **Tədris dili** | Azərbaycan | |
| **Fənnin növü (məcburi, seçmə)** | Seçmə | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | Dərsliklər:<br>1. Ələkbər Rzaquliyev - Rəngkarlıq və qrafika. Bakı 2018<br>2. Altay Hacıyev - Rəngkarlıq və qrafika. Bakı 2011<br>3. Ziyadxan Əliyev. Yaşar Səmədov-Rənglərin simfoniyası. Bakı-2020<br>4. Vəcihə Səmədova - Rəngkarlıq və qrafika. Bakı 2015<br>5. Sətdar Bəhlulzadə - Rəngkarlıq və qrafika. Bakı 2012<br>6. Çingiz Fərzəliyev, Azərbaycan boyakarlığı, 2007.<br>7. Çingiz Fərzəliyev, Azərbaycan miniatürləri, 2013.<br>8. Çingiz Fərzəliyev, "Vərqa və Gülşa" miniatür albomu, 2021.<br>9. Lesley Gray, Sitara İbrahimbəyli, Rabiyyat Heydərli, Məlek Bayramlı, Vüsal Rəhim, Vasif Kərimli, Nijat Məmmədov — Azərbaycan müasir incəsənəti, 2020<br>10. Eldəniz Rza oğlu İbrahimov — Azərbaycanın milli təsviri sənəti, 2013 | |
| **Kursun təsviri** | "Təsviri incəsənət müəllimliyi" ixtisası üzrə "Qrafik rəsm" fənninin tədrisi iki əsas istiqamətdə — nəzəri və təcrübi hissə üzrə qurulur. Nəzəri hissədə tələbələr qrafik sənətin tarixi inkişaf mərhələləri, əsas ifadə vasitələri, kompozisiya qanunauyğunluqları, xətt, ləkə, ton, faktura və işıq-kölgə münasibətləri haqqında geniş biliklər əldə edirlər. Bu mərhələdə qrafik əsərlərin təhlili aparılır, müxtəlif üslub və yanaşmalar müqayisə edilir, klassik və müasir nümunələr üzərində araşdırmalar həyata keçirilir.<br>Təcrübi hissədə isə tələbələr qazandıqları nəzəri bilikləri tətbiq edərək müxtəlif tapşırıqları yerinə yetirirlər. Naturadan və təsəvvürdən rəsmlər çəkilir, kompozisiya quruluşu üzərində işlənilir, forma və məkanın düzgün verilməsi bacarığı inkişaf etdirilir. Müxtəlif qrafik materiallardan (karandaş, tuş, kömür və s.) istifadə etməklə texniki vərdişlər formalaşdırılır və fərdi yaradıcılıq üslubu tədricən inkişaf etdirilir.<br>Bu fənnin əsas məqsədlərindən biri tələbələrin yalnız peşəkar bacarıqlarını artırmaq deyil, həm də onların mənəvi dünyasına təkan vermək, estetik zövqünü formalaşdırmaq və yaradıcı təfəkkürünü genişləndirməkdir. Sərbəst düşünmə, mövzuya fərdi yanaşma və yaradıcı həll yollarının tapılması prosesdə xüsusi yer tutur. Nəticə etibarilə tələbə tapşırılan qrafik rəsm kompozisiyasını daha dolğun, | |

<table>
<tr><td></td><td colspan="3">əsaslandırılmış və mükəmməl şəkildə həll etmə bacarığına yiyələnir.</td></tr>
<tr><td>Kursun məqsədləri</td><td colspan="3">Fənnin məqsədi:<br>Fənnin öyrənilməsində məqsəd qrafik rəsmdə öyrənilən müəyyən texnikaların nümunələrinin tətbiqi vacib sayılır. Fənnin məqsədlərindən biri də Qrafik rəsm kompozisiyası estetik zövqün formalaşması, bədii və gözəllik anlayışını ifadə etməkdir.</td></tr>
<tr><td>Tədrisin (öyrənmənin nəticələri</td><td colspan="3">Fənnin ümumi tədrisi prosesində tələbələr:<br>• Tələbənin Qrafik rəsm kompozisiyası barədə professional dünya görünüşünün artması;<br>• Abstrakt düşüncənin inkişafını;<br>• Bədii düşüncənin yaradıdılıq ifadəsinə kömək edən müxtəlif detalların həlli;<br>• Qrafik rəsm texnikaları haqqında tam təsəvvürün formalaşması;<br>• Fərdi imkanların öyrənilməsi və qiymətləndirilməsi;<br>• Tələbə təfəkküründə zəruri olan tam yararlı bədii müəllif həllinin reallaşdırılması;<br>• Üçün zəruri olan praktiki təcrübə və üsullarını;<br>• Yaradıcılıq tapşırıqlarının praktiki təcrübə səriştələrinin formalaşmasını;<br>• Qrafik rəsm texnikaları kompozisiya ilə bağlı olan təfəkkür, bədii yaradıcılıq baxışların yaranması.</td></tr>
<tr><td rowspan="3">Tədris metodları</td><td>Mühazirə</td><td colspan="2">x</td></tr>
<tr><td>Praktik tapşırıqlar</td><td colspan="2">x</td></tr>
<tr><td>Digər</td><td colspan="2">x</td></tr>
<tr><td rowspan="8">Qiymətləndirmə</td><td>Komponentləri</td><td>Tarix/son müddət</td><td>Faiz (%)</td></tr>
<tr><td>Tapşırıq 1</td><td></td><td>10</td></tr>
<tr><td>Tapşırıq 2</td><td></td><td>15</td></tr>
<tr><td>Davamiyyət</td><td></td><td>5</td></tr>
<tr><td>Aktivlik</td><td></td><td>10</td></tr>
<tr><td>Aralıq imtahanı</td><td></td><td>25</td></tr>
<tr><td>Final imtahanı</td><td></td><td>35</td></tr>
<tr><td>Yekun</td><td></td><td>100</td></tr>
</table>

| | |
|---|---|
| **Qaydalar (Tədris siyasəti və davranış)** | Tələbələr **tapşırığı** fərdi şəkildə hazırlamalı və dərsdə təqdim etməlidir. Məzmunundan asılı olaraq, tapşırıqlar A4, A3 və A2 farmatında tələb olunacaqdır. Aralıq imtahanına qədər tapşırığı 20 bal (hərbir qrafik rəsim 10 bal), Final imtaha qədər tapşırıq 20 bal (hərbir qrafik rəsim 10 bal) təyin olunub. **Tapşırığın mütləq tələbə tərəfindən təqdim edilməsi tələb olunur.**<br>Aralıq imtahana qədər fevral və mart ayları ərzində, final imtahana qədər aprel və may ayları ərzində işlənilən tapşırıqlar təhvil verilməlidir. Sonuncu dərs həftəsindən sonra əlavə vaxt verilmir.<br>**Qeyd:** Qrafik rəsm kompozisiyaları tələbələr tərəfindən əlnən işlənməlidir<br>Plagiat olan işlər qəbul edilməyəcəkdir.<br>**İstisna:** Fakültə dekanlığına tələbə öncədən üzrlü səbəbdən (ailəvi vəziyyət və səhhətlə bağlı) Prezentasiyada iştirak edə bilməyəcəyi haqda məlumat vermişsə, və ya sonra bununla əlaqədar hər hansı bir sənəd (ərizə və ya arayış) təqdim edibsə, yalnız bu halda tələbəyə yenidən yoxlama keçirilə bilər.<br>**Davamiyyət**<br>Dərsə davamiyyətə görə verilən maksimum bal 5 baldır. Balın miqdarı əsasən: tələbə semestr ərzində fənn üzrə bütün dərslərdə iştirak etdiyi halda ona 5 bal verilir. Fənn üzrə semestr ərzində buraxılmış dərs saatlarının ümumi sayı normativ 25%-dən müəyyən olunmuş (xəstəlik, ailə vəziyyəti və s.) həddən yuxarı olduğu halda tələbə imtahan sessiyasına buraxılmır və onun haqqında müəyyən qərar qəbul edilir.<br>**İmtahanlar**<br>Aralıq imtahanı fevral və mart ayında tədris olunan mövzular üzrə, final imtahanı isə aprel və may ayında tədris olunan mövzular əsasında keçiriləcəkdir. Tələbənin imtahanda iştirakı və ya imtahanın buraxılması ilə bağlı bütün məsələlər fakültə rəhbərliyi tərəfindən həll olunur. İmtahanda verilmiş bilet tapşırığını 3 saat ərzində təsvir edib təhvil vermək lazımdır.<br>**Fənni bitirmək qaydası**<br>Tələbənin biliyi maksimum 100 balla qiymətləndirilir. kursu bitirmək üçün ümumi müvəffəqiyyət faizi 60 % və daha yuxarı hesab edilir. Kəsri olan tələbə bu fənni növbəti semestr və ya növbəti il təkrarən götürə bilər.<br>**Tələbənin davranış qaydaları**<br>Tələbə Universitetin daxili nizam-intizam qaydalarını pozmaq və mobil telefondan istifadəsinə icazə verilmir. |

**Cədvəl**

| Həftə | Tarix | Fənnin mövzuları | Dərslik/Tapşırıqlar |
|---|---|---|---|
| 1. | | “Giriş” Qrafik rəsm anlayışı.<br>Sadə Qrafik rəsm tərtibat və rəsmin həlli texnikalarına aid eskizlərin hazırlanması | **Ələkbər Rzaquliyev – Rəngkarlıq və qrafika, 2018**<br>s. 5–18, 42–58<br><br>**Altay Hacıyev – Rəngkarlıq və qrafika, 2011**<br>s. 10–22<br><br>**Eldəniz Rza oğlu İbrahimov – Azərbaycanın milli təsviri** |

| | | | |
|---|---|---|---|
| | | | **sənəti, 2013 (I cild)**<br>s. 60–75 |
| 2. | | “Xocalı soyqırımı” qrafik rəsm mövzusunun izahı, mövzuya aid eskizin hazırlanması. | **Lesley Gray və b. – Azərbaycan müasir incəsənəti, 2020**<br>s. 120–135<br><br>**Eldəniz Rza oğlu İbrahimov – Azərbaycanın milli təsviri sənəti, 2013 (II cild)**<br>s. 140–155 |
| 3. | | Sadə Qrafik rəsm tərtibat və rəsmin həlli texnikaları. Eskizin təsdiqi. | **Ələkbər Rzaquliyev, 2018**<br>s. 60–82 (Qrafik material və texnikalar)<br><br>**Altay Hacıyev, 2011**<br>s. 35–50 |
| 4. | | Qrafik rəsmin qəbulu. | **Səttar Bəhlulzadə – Rəngkarlıq və qrafika, 2012**<br>s. 90–105<br><br>**Ziyadxan Əliyev, Yaşar Səmədov – Rənglərin simfoniyası, 2020**<br>s. 70–88 |
| 5. | | Qrafik rəsm növü “Ofort”<br>“Qədim İçərişəhər” qrafik rəsm mövzusunun izahı | **Ələkbər Rzaquliyev – Rəngkarlıq və qrafika, 2018**<br>s. 85–100<br><br>**Çingiz Fərzəliyev – Azərbaycan boyakarlığı, 2007**<br>**s**. 150–165 |
| 6. | | Qrafik rəsm növü “Litoqrafiya”<br>mövzuya aid eskizin hazırlanması. Eskizin təsdiqi. | **Altay Hacıyev – Rəngkarlıq və qrafika, 2011**<br>s. 75–90<br><br>**Eldəniz Rza oğlu İbrahimov – Azərbaycanın milli təsviri sənəti, 2013 (I cild)**<br>s. 110–125 |
| 7 | | “Qədim İçərişəhər” və ya “Novruz bayramı”mövzusuna aid qrafik rəsmin tərtibatı<br><br>Mövzuya aid eskizin hazırlanması.<br>Qrafik rəsm kompozisiyaların təqdimatının hazırlanması | **Lesley Gray və b. – Azərbaycan müasir incəsənəti, 2020**<br>s. 80–100<br><br>**Çingiz Fərzəliyev – Azərbaycan miniatürləri, 2013** |

| | | | |
|---|---|---|---|
| | | | s. 45–70 |
| 8 | | Qrafik rəsm növü "Linoqravyura"<br>Rəsmin yekunlaşdırılması | **Ələkbər Rzaquliyev – Rəngkarlıq və qrafika, 2018**<br>s. 101–115 |
| 9 | | **Aralıq imtahanı** | |
| 10 | | Qrafik rəsm növü "Kağız lövhədə çap" Qrafik rəsm növü "Ksiloqrafiya"<br><br>"Xatirələr" qrafik rəsm mövzusunun izahı, mövzuya aid eskizin hazırlanması Eskizin təsdiqi. | **Altay Hacıyev – Rəngkarlıq və qrafika, 2011**<br>s. 95–110<br><br>**Eldəniz Rza oğlu İbrahimov – Azərbaycanın milli təsviri sənəti, 2013 (II cild)**<br>s. 160–175 |
| 11 | | *"Xatirələr" mövzusuna aid qrafik rəsmin qəbulu.* "Musiqi duyğuları" mövzusuna aid qrafik rəsmin qəbulu. | **Ziyadxan Əliyev, Yaşar Səmədov – Rənglərin simfoniyası, 2020**<br>s. 90–115<br><br>**Lesley Gray və b. – Azərbaycan müasir incəsənəti, 2020**<br>s. 140–155 |
| 12 | | Qrafik rəsm növü "Tuş – pero".<br><br>*"Musiqi duyğuları"* qrafik rəsm *mövzusunun izahı, mövzuya aid eskizin hazırlanması.* | **Ələkbər Rzaquliyev – Rəngkarlıq və qrafika, 2018**<br>s. 120–135 |
| 13 | | *"Musiqi duyğuları"* qrafik rəsm *mövzusunun izahı, mövzuya aid eskizin təsdiq* | **Altay Hacıyev – Rəngkarlıq və qrafika, 2011**<br>s. 55–70 |
| 14 | | Musiqi duyğuları mövzusuna aid qrafik rəsmin qəbulu | **Səttar Bəhlulzadə – Rəngkarlıq və qrafika, 2012**<br>s. 110–125 |
| 15 | | Qrafik rəsimlərin təqdimata hazırlanması | **Lesley Gray və b. – Azərbaycan müasir incəsənəti, 2020**<br>s. 10–25 |
| **Final imtahanı** | | | |